ISSN:2148-2292
Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı

Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 210-230
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 210-230

Araştırma Makalesi
Original Article

# Nadir Şah Əfşar "Karmelitlərin Xronikası"nda

**Sevinc Məlikzadə** *

**ORCİD:0000-0001-8641-4156**

**Xülasə**

Azərbaycan tarixinin mühüm tərkib hissəsi olan Azərbaycan Səfəvilər dövləti və onun süqutu, Nadir şah imperiyasının yaranması, öyrənilməsi vacib olan tarixi dövrlərdən biridir. XVIII əsrin əvvəllərində artıq Səfəvi dövləti zəifləmişdi. Belə bir dönəmdə ölkə qonşu dövlətlərin hücumuna məruz qaldı. Əfqanların üsyanı, dövlətin mühüm əhəmiyyətə malik hissəsi olan Azərbaycan vilayətinin Osmanlı və Rusiya arasında bölüşdürülməsi mövcud siyasi vəziyyəti daha da kəskinləşdirdi. Belə bir zamanda Xorasana köçürülmüş qızılbaş-türk əfşar sülaləsindən olan Nadir öz sərkərdəlik məharətini göstərərək, Səfəvi dövlətinin ərazi bütövlüyü uğrunda mübarizəyə başladı. Beş il ərzində əfqanları, rusları, türkləri ölkə sərhəddindən uzaqlaşdırdı. Nüfuzunu itirmiş Səfəvi dövlətinə son qoyaraq Əfşarlar dövlətinin əsasını qoydu. Məqalədə missionerlərin fəaliyyəti, baş verən siyasi hadisələri Avropaya hansı şəkildə çatdırmaları, ölkədəki xristianların vəziyyəti haqqında karmelitlərin yazdıqları araşdırılmışdır. Burada Roma papasının Nadir şaha yazdığı iki məktubu, Nadir şah Hindistanda olarkən oğlu Rzaqulunun xristianlara bir sıra imtiyazlar verməsi haqqında maraqlı məlumatlar vardır. Nadir Şah Əfşarın dini ishahat keçirərək İslamda məzhəb ayrı-seçkiliyinə son qoymağa cəhd etməsi, bu məqsədlə Osmanlı imperiyasına elçi göndərməsi, bütün dinlərin müqəddəs kitablarının farscaya tərcümə etdirməsi haqqında karmelitlərin məlumatları araşdırılmışdır.

**Açar sözlər:** Karmelit Xronikası, Roma Papası, Nadir Şah Əfşar

**Gönderme Tarihi: 30/10/2019** **Kabul Tarihi:26/12/2019**

* *Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun fəlsəfə doktora proqramı üzrə doktorantı, böyük elmi işçi, E-mail:mako_zt@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

Cilt:6 / Sayı:5
Kış 2019

# Nadir shah Afshar in the "Carmelite Chronicle"

**Sevinj Malikzade**

**Abstract**

An important part of the history of Azerbaijan, the Safavid state and its collapse, the formation of the Nadir Shah Empire, is one of the important historical periods. At the beginning of the XVIII century the Safavid state was weakened. During this period, the country was under attack by neighboring states. Afqan's rebellion, the division of the Azerbaijani province of Ottoman and Russia, an important part of the state, further aggravated the current political situation. At the same time, from Kizilbash-Turk Afshar dynasty who had been transferred to Khorasan, Nadir, began to fight for the territorial integrity of the Safavid state. For 5 years, he has kept Afghans, Russians and Turks away from the country. He put an end to the Safavid state, which lost its prestige and laid the foundations of the Afshar State. Carmelite information about the Nadir Shah Afshar's efforts to put an end to secration discrimination in Islam, for the purpose to send an ambassador to the Ottoman Empire, to translate the holy books of all religions into Persian was studied. The article explores the missionaries' work, how they convey political events to Europe, and the Carmelites' writing about the Christian situation in the country. Here are some interesting facts about two letters the Roman Pope wrote to Nadir shah , and some of the privileges that his son Rzaqulu gave to Christians while Nadir was in India.

**Keywords:** Carmelites, Roman Pope, Nadir Shah Afshar

**Received Date: 30/10/2019** **Accepted Date: 26/12/2019**

# Надир шах Афшар в «Кармелитской хронике»

**Севинч Меликзаде**

**Резюме**

Важной частью истории Азербайджана, государсва Сефевидов и его распада, формирования Империи Надир-Шах, является один из важных исторических периодов. В начале XVIII века государство Сефевидов было уже ослаблено. В этот период страна подверглась нападению со стороны соседних государств. Восстание афганцы, разделение азербайджанской провинции Османской империи и России, аважной части государсва, еще более усугубило нынешнюю политическую ситуацию. В то же время Надир, из турк-кызылбаш афшарская династия, которая была переведена в Хорасан, начало бороться за территориальную целостность государство Сефевидов. В течение 5 лет он удерживала афганцев, русских и турок от страны. Он положил конец государсву Сефевидов, которое утратило свой престиж и заложило основы государсва Афшар.В статье исследуется работа миссионеров, как они передают политические события в Европу, а также сочинения кармеритов о христианской ситуации в стране. Там есть некоторые интересные факты о двух письмах, которые Римский папа написал Надир-Шаху, и о некоторых привилегиях, которые его сын Рзакулу дал христианам, когда он был в Индии. Кармелиты изучали информацию о попытках Надир шаха Афшара положить конец религиозной дискриьинации в исламе, отправить посла в Османскую империю и перевести священные книги всех религий на персидский язык.

**Ключевые слова:** Кармелитская хроника, Папа Римски, Надир Шах Афшар

**Получено: 30/10/2019** **Принято: 26/12/2019**

*Akademik Yaqub Mahmudovun 80 illik Yubileyinə*

**Giriş**

Azərbaycan tarixinin ən mühüm, öyrənilməsi vacib olan dövrlərindən biri Azərbaycan Səfəvi dövlətinin süqutu və Əfşarlar imperiyasının yaranması dövrüdür. İki əsrdən çox nəinki Azərbaycan həmçinin İran və Şərqin tarixində iz qoymuş Səfəvi dövləti bir sıra daxili və xarici səbəblərdən çökdü. Şah II Təhmasib (1722-1732) ölkənin ərazi bütövlüyünü bərpa etməyə cəhd göstərsədə mümkün olmadı. Təhmasibin sərkərdəsi Nadirqulu xan Əfşar türkləri, rusları, əfqanları ölkə hüdudlarından çıxardaraq dövlətin ərazi bütövlüyünü bərpa etdi. Lakin bütün bunlar Səfəvi dövlətinin süqutunun qarşısını ala bilmədi. Artıq xaraktercə zəif Şah Sultan Hüseynin dövründə baş vermiş əfqanların üsyanı nəticəsində dövlətin süqutu sürətlənmişdi. Səbəb idarəçiliyin zəifliyi, iqtisadi böhran, ticarət yollarının bərbadlığı və s. idi. Daxilən çürümüş dövlətə isə son zərbəni Nadir xan vurdu. İlk öncə Şah II Təhmasibi taxtdan salaraq onun azyaşlı oğlu Abbası III Abbas adı ilə taxta çıxardı və onu adından ölkəni idarə etməyə başladı. Bu müddət ərzində Təhmasibin ruslar və türklərlə bağladığı müqavilələri ləğv edərək, fəal hərbi əməliyyatları davam etdirdi. 1735-ci ildə işğalçıları tamamilə ölkədən çıxardı. Artıq Səfəvi xanədanında ona rəqib olacaq biri yox idi. Sonra qurultay çağıraraq özünün şah elan olunmasına nail oldu. Beləliklə, Səfəvi dövləti süquta uğradı.

**Nadir şah Əfşar “ Karmelitlərin xronikası”nda**

Hələ Şah I Abbasın dövründən etibarən Səfəvi imperiyası ərazisində Roma papasının təlimatı ilə müxtəlif xristian missioner təşkilatları fəaliyyət göstərirdi ki, bunlardan biridə Karmelitlər idi. Karmelitlərin Şərq ölkərindəki fəaliyyəti Şah I Abbasın dövründən başlayaraq 1780-cı ilə kimi davam etmişdir. Məhz bu dönəmdə fəaliyyət göstərmələri əsas məqsədlərinin Osmanlıya qarşı müttəfiq tapmaq olmasını aşkara çıxarır. Səfəvi və Əfşarlar imperiyaları süquta uğradıqdan sonra onlar fəaliyyətlərini dayandırırlar. Karmelitlər əldə etdikləri məlumatları Roma papasına çatdırmaq üçün xronika şəklində yazırdılar. İtalyan dilində olan bu mənbə ingiliscəyə tərcümə edilərək 1939-cu ildə nəşr olunmuşdur.

Xronikada Səfəvilərin son dövrü hadisələri ətraflı təsvir edilmişdir. Xronika Nadir xanın özünü şah elan etməsi haqqında yazır ”Təqibdən qayıdan Təhmasib qulu

xan (Şah Təhmasib Nadirə bu adı vermişdi-S.M.) 1735-ci ilin başlanğıcında Gəncəni aldı. Ehtimal olunur ki, İrəvanı tutmaq üçün burada qaldı. 1736-cı ilin başlanğıcında azyaşlı Abbas öldü (yaxud zəhərləndi). Sağ olsada belə göz ardına alındı." Lakin başqa qaynaqlarda III Abbasın ölmədiyi sadəcə hakimiyyətdən uzaqlaşdırıldığı bildirilir.[1]Bu vaxt iddialı sərkərdə "Böyük Məclis" çağırdı. İngilislər bəyan edirlər ki, O, Muğan düzənliklərində əlverişli və uyğun zaman tapıb İran Şahənşahı kimi qılınc və tac taxdı. Amma rəsmi tacqoyma mərasimi Qəzvində baş verdi. 1736-cı il martın 15-də çapar xəbər gətirdi ki, Böyük Məclisdə yeni şahı istəyənlər üstünlük təşkil edib və O, xeyirxahlıqla bunu qəbul edib və Mirzə Tağını Fars vilayətinin bəylərbəyisi təyin edib.[2] Həmçinin Britaniya ensiklopediyaçları onu da qeyd ediblərki, mövcud sülalənin hakimiyyətinə son qoyulmasına qarşı çıxan Şiələrin baş müctəhidi Mollabaşı Nadir tərəfindən boğdurularaq öldürüldü. [3]Lakin xronikada Nadirin hansı şərtlərlə şahlığı qəbul etdiyi göstərilmir. Halbuki digər qaynaqlarda cəfəriliyin qəbulu və dərhal osmanlıya danışıqlar üçün elçi göndərilməsi yazılır.[4]

Xronika da Nadir şahın siyasi fəaliyyətinə, yürüşlərinə də yer ayrılmışdır. "1736-cı ilin sentyabrında o Lurun cənub-qərbindəki qəbilələrə qarşı kompaniya başladı və Bəxtiyarilərin başçısına hücum edərək öldürdü."[5]Fr.Emmanuel of S.Albert 1736-cı il 3 oktyabr tarixində Bağdaddan yazdığı məktubda vurğulayır: "Farsdakı müharibələrə gəldikdə isə mən düşünmürəm ki, onlar bitəcək. Təhmasib qulu xan özünü şah elan edib qılınc əlindədi."[6] 1736-cı il 19 oktyabr tarixində yazır: "Şah lurlular üzərində qələbə çalır və onların şahı Əli vəhşicəsinə öldürülür."[7] Əzəmətli Şah indi Qəndəhar və Hindistan üzərinə yürüşə hazırlaşır. İsfahandan ordu ilə Deh Girdiyə gəlir və 1737-ci ilin avqustunda Qəndəhar üzərinə yürüş edir. On altı aylıq mühasirə təsirsiz oldu və o həlledici hücuma gecikdikcə əfqanlar nəticə əldə etdilər. Asiya sərkərdəsi sonda cəld hərəkət edərək bir neçə tarixçilər nəql etdiyinə görə kifayət qədər qüvvə ilə - 80000-lik qoşunla irəliləyərək Xorasan və Sistandan keçərək Qəndahara yaxınlaşdı. Hiylə ilə güclü mövqe- istinadgah qazandı. Təklif etdi ki, girovları dəyişsinlər. Onu şəxsi

---

[1]Maykl Aksvörti, *Nadir şah*, Bakı: Şərq-Qərb, 2018, 241; Abdurrahman Ateş ve Ahmet Halaçoğlu, "Avşarlı Nadir şah və dönemində Osmanlı-İran mücadeleleri", Süleyman Demirel Universitesi, Doktora Tezi, 2001, 79; Mehman Süleymanov, *Nadir şah*, Bakı: Qanun, 2018, 300; Laurens Lokkart, *Nadir şah,* Bakı: Qanun, 2018, 148.

[2]*A Chronicle of the Carmelites in Persia*, I Vol, London-New-York: Tauris 2012, 605; Yaroslav Pilipçuk, "Nadir Şax i Qruziya", *İranname*, №4, 2018, 266.

[3]*A Chronicle of the Carmelites in Persia*, 605.

[4]Lokkart, *Nadir şah,*144.

[5]*A Chronicle of the Carmelites in Persia*, 606.

[6]*A Chronicle of the Carmelites in Persia*, 606.

[7]*A Chronicle of the Carmelites in Persia* , 606; Süleymanov, *Nadir şah*, 313.

düşərgəsindən şah qardaşı oğlu Lütfəlini təlimatla göndərdi, hücumu dayandırdı sonra əvvəlcədən hazırladığı mövqedən top atəşi açdı. Əlində olan Qəndəhar girovlarının başını kəsdirərək şəhərə hücum etdi və şəhəri tamamilə dağıtdı[8]. 1738-ci ildən etibarən Mərkəzi Asiyanın hökmdarlarını tabe etməklə məşğul oldu. Bu müddətdə oğlu Rzaqulu Oks çayını keçərək özbəkləri məğlub etdi və Bəlx təslim oldu. Nadir Şah qaçanları təqib etdi. Qəndəhardan Qəznədən keçərək Kabula qədər... Oğlu Rzaqulunu Xorasanın valisi təyin etdi. Hansı ki, Şah Təhmasib Səfəvi burada idi. Sonralar sülaləni tükətmək üçün Şahzadə Rzaqulu şahın əmri ilə Şah Təhmasibin bütün arvadlarını, uşaqları ilə öldürtdürdü. Sonda Şah Təhmasib boğularaq öldürüldü.[9] Lakin başqa qaynaqlarda Səfəvi xanədanına Nadirdən xəbərsiz Rzaqulunun əmri ilə son qoyulduğu yazılır.[10]Sonra Nadir şah Moğol imperiyasına tərəf yönəldi. Atok və Jelum çaylarını keçərək Lahora çatdı. Şəhər tezliklə tutuldu. O, 1739-cu ildə Karnalda Moğol imperatoru Məhəmmədi məğlub etdi.[11]

Fr.Leander’s yazır: ”İmperatoru çadırına dəvət edərək ziyafət-dönüş bayramı verdi. Nadir imperatoru böyük məbləğdə illik xərac verməyə məcbur etdi. Onun xəzinəsini qarət edərək 100 filə yüklədi. İmperatorun qızını oğluna gəlin etdi və dərhal yola düşdü. Dehlidə yalnız 58 gün qaldı.[12]Nadir şah bununla sübut etdi ki, məqsədi işğal deyil, qonşuluq əlaqələrini gücləndirmək və hakimiyyətini yaymaq idi. Qayıdarkən qardaşı İbrahimi üsyançı özbəklərə qarşı göndərdi və İbrahim döyüşdə öldürüldü. [13]1740-cı ildə Heratdan Mərkəzi Asiyaya hərəkət etdi. İngilis ensiklopediyaçılarına görə, O, əsas iqamətgahı olan Məşhədə gəldi. Burada bir neçə ay şənliklər keçirildi. Leander’s qeyd edir ki, qışı isə Mazandaranda keçirdi. Neçə illik müharibədən sonra Persiyada əmin amanlıq ümidi ilə balaca nəfəs almağa başladıq. [14] “Şahənşah Mazandaranda qalanda bir gün arvadı ilə at sürməyə çıxır və cəngəlliyin yaxınlığında keçərkən ona güllə atılır. Amma güllə atının sinəsinə dəyir. Dərhal ikinci güllə açılır. O, sol əlindən və baş barmağından vurulur. Daha doğrusu birinci atəşdə yaralanmış və atla birgə yıxılmışdı. Ağrı və qorxudan huşunu itirdi. Qadınlar dərhal onun köməyinə

---

[8]*A Chronicle of the Carmelites in Persia.*, 606; Süleymanov, *Nadir şah*, 376-378.
[9]*A Chronicle of the Carmelites in Persia*, 606.
[10]Aksvörti, *Nadir şah,* 280-281; Firudun Əsədov, *Nadir şah Əfşar,* Bakı: İqtisad Universiteti, 2011, 46; Abbasqulu ağa Bakıxanov, *Gülüstani-İrəm*, Bakı: Minarə, 2000, 63; Lokkart, *Nadir şah,* 245.
[11]*A Chronicle of the Carmelites in Persia*, 606; Lokkart, *Nadir şah,* 194; Ceyms Freyzer, *The History of Nadir Shah,* London: 1742, 224-225.
[12]*A Chronicle of the Carmelites in Persia*, 606.
[13]*A Chronicle of the Carmelites in Persia,* 606; Əsədov,*Nadir şah Əfşar*, 45; Lokkart, *Nadir şah,* 238-239.
[14]*A Chronicle of the Carmelites in Persia,* 607.

qaçdılar. Özünə gələndə yarası sarınmışdı. O, və onun rəsmiləri şahın həyatına qəsd edilən cinayətin məsuliyyətini daşıyanların tapılması üçün çox araşdırma apardılar. Bir neçə gündən sonra artıq yara sağalmışdı. Şah süfrənin altından bir yazı tapdı:"Əbəs yerə sənə qarşı kimin silah işlətdiyini axtarırsan: Bil, Həsənlə Hüseynin oğlu on ikidir .Onlardan ikisi sənin həyatına uğursuz qəsd etdi. Amma onlardan onu hansı ki, hədəfi vurmağa cəhd edirlər və onlar qalırlar". Şahənşah bu sözləri oxuyarkən rəngi ağardı və əsməyə başladı. Onun qəlbi qorxu ilə doldu. O artıq kimə etibar edə biləcəyini bilmədi. Günahkarın kim olduğunu bilmək üçün böyük məbləğdə pul vəd verdi. Elandan çox keçməmişdi ki, mühafizədəki əsgərlərdən biri cəsarətlə ona ataş açdığını dedi. Şahənşah ona sual etdi ki, bu hərəkəti etməyi təklif vəya əmr kimdən gəlmişdir. Əsgər cavab verdiki, əmr Nadirin qardaşı oğlu Lütfəlidən, onun keşik komandirindən və öz oğlundan gəlmişdir, hansı ki, Hindistan impetorunun qızı ilə evlənmişdir. Şah sonra əmr verdiki, onlar dərhal onun qarşısına gətirilsin. Bütün cinayət iştirakçıları sui qəsddə məzəmmət olundular. Şah əmr etdi ki, söz verdiyi məbləğ əsgərə ödənilsin. Amma günahkarları cəzasız qoymadı dərhal gözlərini çıxartdırdı.[15] Digər qaynaqlarda da bu sui-qəsd məsələsi fərqli şəkillərdə olsa da əksini tapmışdır. Bu hadisə Nadirə vəliəhdi Rzaqulunun gözlərinin çıxarılması üçün səbəblərdən biri idi. Lakin bu məsələ də Rzaqulunun nə qədər günahkar olduğu da naməlum qalır.[16]

Xronikada missionerlərin əsas diqqəti imperiya ərazisindəki xristianlara və missionerlərə olan münasibətə yönəlmişdi. 1738-ci ildə kapuçin Fr.Damian Nadir şahın həkimi oldu. 1746-cı ildə onu yezuit Brazin əvəz etdi. Emmanuelin 1743-cü il 1 yanvar tarixli məktubunda Şahın Xəzər dənizi sahilində Bakıdan uzaq olmayan Dərbənd şəhərində üsyan edən ləzgi və tatarlar üzərinə yürüşündən danışılır.[17] Təbii ki, imperiyada baş verən bütün hadisələr burada fəaliyyət göstərən icmalara da təsir edirdi. Emmanuel 1736-cı il 3 mart tarixli məktubunda yazır: "Nadir şaha qədər Culfadakı katolik icması xeyli dərəcədə artmış, inkişaf etmişdir. Allaha şükür ki, Persiyada missionerlər üçün hər şey rahatdır."[18]29 may 1745-ci il tarixli məktubunda Fr.Sebastian Margaret nəql edir: "İndi Culfada yüzlərlə adam üçün mühüm kilsə düzəltmək lazım olacaq, çünki Allaha şükür tərəfdarların sayı artır. Ola bilsin ki, daha rahat otaq tapmalı olaq. Kilsə çox dar olmamalidir.[19] Həmçinin İsfahandakı ermənilərin üçdə birinin

---

[15]*A Chronicle of the Carmelites in Persia,* 607-608.
[16] Bakıxanov, *Gülüstani-İrəm*, 62; Süleymanov, *Nadir şah,* 300-301; Lokkart, *Nadir şah,* 273-283-285.
[17]*A Chronicle of the Carmelites in Persia,* 609.
[18]*A Chronicle of the Carmelites in Persi,* 613.
[19]*A Chronicle of the Carmelites in Persia,* 613.

katolik olduğunu da yazırdılar.[20] Bundan əlavə məktublarda dövrün siyasi hadisələri ilə yanaşı iqtisadi və ticari məsələlərə də toxunulurdu. Bəndər Abbasda karmelitlərin çox olmasını qeyd edir, həmçinin yazır ki, burada fransız, ingilis, holland qalaları və əsgərləri var. Onların gəmiləri davamlı olaraq Hindistana gedib qayıdır amma indi onlarda yeni Tiranın hakimiyyəti altında azalıblar. Burada az xristian tapılar.[21]Hətta bura son illərdə yaşamaq üçün avropalılar tərəfindən iqliminə görə “cəhənnəmin qapısı” adlandırılırdı. Burada bacarıqlı həkimlər, tibb, gigeyena yox idi. Bir karmelit buranı dinlər üçün qəbiristanlıq adlandırmışdı.[22]Vaxtaşırı imperiyanın müxtəlif şəhərlərində yaşayan missionerlərin birinə yaxud papaya, fransız kralına göndərdikləri məlumat xarakterli məktubları oxuduqca onların burada yaşadıqları çətinlikləri, imperiyanın erməni sakinləri ilə yaşadıqları problemləri də görmək mümkündür.[23]

Ümumiyyətlə, Nadir şahın dini siyasəti ilə tanış olduqda görürük ki, o nəinki islam məzhəblərinə həmçinin başqa dinlərə qarşı da tolerant idi. Məhz buna görə də xristian missionerləri onun dövründədə İranda fəalliyyətlərini davam etdirmiş və dövlətdən imtiyazlar almağa çalışmışlar. Bu baxımdan Papa XII Klementin Nadir şaha yazdığı məktub çox maraqlıdır:”Papa XII Klementdən məşhur və güclü Persiya kralı Nadir şaha. Baxmayaraq ki, Persiya krallığında hər şey belə narahat vəziyyətdədir. Təəccüblü deyil ki, belə şeylər sülh dövlətlərində də baş verir, indiyədək nə olursa olsun keçəcək, bəzən güc əziyyət çəkməyə də səbəb ola bilər. Heç bir şey Əlahəzrətin qüdrətinə təsir edə bilməz. Buna görədir ki, ortodaksal çox dindar dominikan ailəsinin üzvləri təhlükəsizliyə qaça bilərlər. Əvvəlki çətin illərdə onların müharibənin şiddətindən sığınmağı sizin gözünüzdən qaçmayıb. Onlardan bəziləri aclıqdan digərləri qılınc zərbəsindən ölmüş, evləri yandırılmış, məbədləri dağıdılıb və talan edilmişdir. Sağ qalanları isə səpələnib ölümdən də betər qaçaq həyatı sürüblər. Yalnız xristian xeyriyyəçiləri və az miqdarda katolik ermənilər tərəfindən saxlanılıblar ki, hansı ki, onlar tamamilə köməksiz qala bilərdilər. Amma onlar uzun müddət bədbəxt həyat sürməyə tab gətirmədiklərinə görə biz və xristian əhali böyük narahatlıq keçiririk. Biz onlara sizin himayənizi tövsiyə edirik ki, onlar uzun müddət əvvəl götürdükləri məsuliyyəti yerinə yetirmək üçün azad ola bilsinlər. Biz əminik ki, sizin güclü himayəniz sayəsində onları dirçəltməyindən məmnun qalacaqsız. Xüsusilə onların- Ali

---

[20]*A Chronicle of the Carmelites in Persia,* 613.
[21]*A Chronicle of the Carmelites in Persia,* 615.
[22]*A Chronicle of the Carmelites in Persia,* 615.
[23]*A Chronicle of the Carmelites in Persia,* 616-624.

Alksisin oğlu Aleksi və onun əməkdaşı, onun oğlu Peterdən. Əmr edilsin ki, heç bir zaman narahatlıq yaratmayacaq və məbədlərini təmir etməyə mane olmayacaqlar və nəhayət gələcəkdə heç bir xərclə yüklənməyəcək, vergi verməyəcəklər. Ümid edirəm ki, Siz çox insani xüsusiyyətiniz və təbiət tərəfindən verilən mədəni nəcabətiniz sayəsində onlara təqaüd verəcəksiz. Sizin sələfləriniz də bizim katolikləri mehriban və xeyirxahlıqla himayə edirdilər. Xristianların hakimi (Pontic) bu xahişə hazırdı. Əlbəttə ki, bizim üzvlərimiz sizin alicənablığınız sayəsində sizə yaxınlaşacaqlar. Çünki onlar bir çox çətinliklərdən əziyyət çəkmişlər. Buna görə də sizi sadiq olacaq, sizin tərəfinizi tutacaqlar, əbədi Allaha əhdlərindən çıxmayacaqlar. Yalnız onlara icazə verin sizin səxavətiniz sayəsində əvvəlki azadlıq və ləyaqətlərinə qayıtsınlar. Onlar sizə şövqlə dualar edəcəklər. Romadan 18 iyul 1737[24]

Naxçıvan Arxiyepiskop Salvini Kuşakandan Kardinal Prefectə 17 sentabr 1739-cu il məktubu maraqlı detallarla zəngindir:

“Mən istəyirəm sizin Ucalığınızın xatirinə məlumat verim. Persiya hakimliyinin monarxı Lordumuz XII Klementin məktubundan sonra mənim kasıb Naxçıvan vilayətinə imtiyazlar verdi. Böyük Tomas xan hansı ki, indi vali Nemət adını daşıyır fəqət Persiyanı qubernatorlarının mühafizəsinə etibar edərək yeni fəthlər üçün tərk edib Hindistanda moğolların ərazisində döyüşərək oradan inanılmaz xəzinələrin əldə edilməsi ilə məşğuldur. İsfahanın baş keşişi Monsiqnor Filipp mənə bildirdi ki, yuxarıda qeyd edilən məktubu krala təqdim edim. Amma həmişəki kimi xərcləri öz üzərinə götürə bilmir. Bu məlumat mənə çatandan sonra Monsiqnarın yazdığı dindarlarla əlaqə saxladım .Hansı ki, onlar vergi yığanlardan çox əziyyət çəkirdilər. Lakin onlar azacıq sevinməsələr də bir az yüngüləşmə əldə edəcəklərinə ümidləndilər. Birlikdə məsləhətləşdilər ki, məktub dərhal göndərilməlidir. Onlar razılaşdılar ki, roman pulu ilə 1000 skudi tümən bağışlasınlar və Böyük moğolların ərazisinə səfər edilsin. Çünki Vəli Nemət orada ola bilərdi və məktub ona təqdim edilsin. Mən bildirdim ki, sözün yaxşı mənasında səfər kifayət qədər uzaq, çətin, ehtiyatlı və cəsarətli olacaq. O, könülsüz razılaşdı. Amma şəxsi xərclərin təminatını öz üzərinə götürdü. Keçən il oktyabrın 13-də oranı tərk etdi. O, İsfahana çatanda Filipp Müqəddəsin məktubunu ona çatdırdı. Zira bu vaxt Vəli Nemət haqqında şayiə yayılmışdı ki, guya O, böyük oğluna görə hökümətdən istefa vermişdir. Elçi hesab etdi ki, xəbərlərdən əmin olana kimi burada dayanmaq yaxşı olacaq. Onsuzda hər tərəf şahın oğlunun İsfahana çatmağını gözləyirdi.

[24]*A Chronicle of the Carmelites in Persia,* 625-626.

Elçi dörd ay bu şəhərdə dayanaraq gözlədi. Nəhayət əmin oldu ki, yeni "kral" Xorasının mərkəzi olan Məşhəd şəhərindədir və elçi ora yola düşdü. Yolda O, Qulu xanla görüşdü. Qulu xan ona yaxşı məsləhət verdi və gümüş və qızıl saplarla işlənmiş ipək gözəl geyimlər hədiyyə etdi. Bir lütf olaraq elçi Məşhəd üçün zəmanət məktubu xahiş etdi və əldə etdi. Məşhədə çatandan sonra yeni paytaxtda bəzi şəxslərlə dostluq etməyə başladı. Onlar ona davam etmək üçün bir sıra məlumat və məsləhət verdilər. Ona kral üçün hədiyyə ediləcək gözəl, dözümlü at verildi. Burada Qulu xanın tövsiyyə etdiyi Allahverdi xanı tapdı. O, elə ki, Qulu xanın möhürünü tanıdı, elçini səmimi qəbul etdi və əmr etdi ki, atlara baxmaq üçün ki, mehtər versinlər. "Kral" atı gördü və bəyəndi. Sonra O, Müqəddəsin zərxanaya bürünmüş məktubunu, zərlə möhürlənmiş gümüş qutunun içərisində "krala" təqdim etdi. "Kral" dərhal məktubu açdı. Lakin burada latıncadan tərcüməçi yox idi. Heç kimi məktubu oxuya bilmədi. Sonra kral elçidən soruşdu ki, məktubda nə yazılıb. O cavab verdi ki, bilmir. Amma dərhal yaxasından məktubun Fars dilində hazırlanmış tərcüməsini çıxardı. Ehtimal edilib ki, ola bilsin ki, tərcüməçi olmasın. Məktub kansler tərəfindən oxundu. Kral diqqətlə qulaq asdı və sonra elçidən soruşduki, Papa Klement kimdi və O harada yaşayır. Gözlənilməz sualdan elçi qorxdu. Bu az müddətdə insanların necə asanlıqla boğularaq öldürülməsini görmüşdü. Cəsarətsiz olsa da dərhal cavab verdi ki, O, İsanın canişinidir. Hansı ki, İsa, Məhəmməd kimi böyük peyğəmbərdir. Papa İtaliyada yerləşən böyük Roma şəhərində yaşayır. Həmdə dini və dünyəvi hakimdir. Onun dini hakimiyyəti bütün Xristianlar üzərindədir. Hətta üsyançılar, krallar və şahzadələr ona itaət edir onun əmrlərini qəbul edirlər. Dünyəviliyə gəlincə O, silahlı qoşuna, şəhərlərə, qalalara və qəsrlərə malikdir. Elçi Baş Vəzirin müsbət cavabını eşidəndə məmnun oldu. Sonra Molla əmin olmaq üçün tövsiyyə etdi ki, qanun yazmaqda təcrübəli olan şəxs sərəncamı nə olursa olsun "kral"dan soruşaraq yazsın. Burada"kralın" vurğuladığı 7 fərmandan 5-i yazıldı. a) ehtiyac olacağı təqdirdə Naxçıvan katolikləri kilsələrini tikə və ya bərpa edə bilərdilər b) bir nəfər cəsarət edib keşişlərə dinlərini icra etməyə mane ola bilməz. c)Hər kəs Papanın adamlarına, elçilərinə hörmətlə yanaşmalıdır d)Naxçıvanın katolik kəndlərində hansı ki, krala vergi ödəyirdilər başqa tələblərə məsuliyyət daşımamalıdırlar. e) Naxçıvan katolikləri icması pul faizi və digər borclarını ödəməməlidirlər. Fərmanlar sərəncama uyğun verilməlidir. Nəhayət yalnız o qaldı ki, başlıqların gözəl və zərifliyi fars dilindəki kimi qüvvədə qalaraq papa üçün latın dilinə tərcümə edilsin."[25] Çox

[25] *A Chronicle of the Carmelites in Persia*, 626-628.

güman ki, bu hadisə 1739-cu ildə Nadir Hindistanda yürüşdə olarkən dünyasını dəyişdiyinə dair xəbərlər yayılarkən Rzaqulunun özünü şah elan etdiyi dövrə təsadüf edir.[26]

Naxçıvanın baş keşişi elçidən bu cavabı 1739-cu il 22 avqustunda aldı. Fərmanlar Naxçıvan xanına çatdırıldı. Mgr Salvininin 1744-cü ildə sonrakı məktubunda qeyd edilir ki, katolik ermənilərin xeyrinə kiçik mənfəət əldə edilmişdir. Lakin sonralar bu sərəncamlara çox da əhəmiyyət verilmədi.[27]

Təbrizdən 1744-cü il 14 aprel tarixində Naxçıvanın baş keşişi Salvini Kardinal prefektə ünvanlamışdı :“İki ildir ki, quldur ordu sərhəddədir və mən yazmağa gecikmişəm yalnız indi vəziyyət imkan verdi və mən məcbur oldum ümidsiz əziyyətimiz barədə yazım. Mənim adamlarımın böyük hissəsi uzun müddətli gücə malik deyillər ki, müqavimət göstərsinlər. İyirmi ildi davam edən qəddar müharibəyə görə onlar sərhədləri keçib Smirnaya köç etmişlər. Bir hissəsi bura Təbriz şəhərinə pənah gətirmişlər. Onlardan bir hissəsi öldürülmüş, digər hissəsi aclıqdan həlak olmuş, bəziləri qaçaqdılar , gizlənirlər və onlara heç bir dəstək yoxdur. Yaxud da qılıncla təhdid edilərək köləliyə daşınmışlar. Buna görə də təhükədən qaçaraq Araz çayını keçib 24 saat ərzində Təbrizə səpələndik. Burada (Təbrizdə) iki katolik ailəsi var. Halbuki əvvəllər onların sayı 25 idi. Katolik evləri səyahətçi və ticarət üçün gələnlərdən ibarət olurdu. Yaxşı vaxtlarda burada adətən 30 adam olurdu. Amma indi burada Kapuçin atanın evində səhv etmirəmsə 16 adam var ki, səkkizi Naxçıvandan qaçıb gələnlərdi”.[28] Burada söhbət 1743-1744-cü illərdə Əfşarlar və Osmanlı arasında başlanan müharibədən gedir.[29]

Məktublardan görünür ki, katolik missionerləri ilə qriqorian erməniləri arasında da münasibətlər yaxşı deyildir. 1740-cı il 4 noyabr tarixində İsfahanın Baş keşişi Filipp Mari Kardinal Prefektə yazdığı məktubda açıqlayır: ”İki ildir ki, biz məslək məsələlərində ermənilərin qeyri-katolik Lazarus adlı patriarxı tərəfindən daimi təzyiqə məruz qalmışıq. O, bütün missionerlərdən tələb edir ki, Persiyanı tərk etsinlər və onların kilsələrini dağıdır. Kralın atası isə Hindistandadır. Beş dəfə bu məqsədlə patriarx sərdara bildirdi ki, çoxlu pul xərcləyərək yalançı ifadələr düzəltdirdi ki, guya missioner Atalar krala vergi ödəməyi dayandırır, ölkədə ictimai sülhü pozur, erməniləri öz inamlarından çıxardır, ölkədə ziyan işlərə səbəb olur, insanları oğurlayır onları öz

[26] Aksvörti, *Nadir şah,* 279.
[27] *A Chronicle of the Carmelites in Persia,* 628.
[28] *A Chronicle of the Carmelites in Persia,* 628.
[29] Nigar Gözəlova, Əhməd Bağırov, *XVIII sərin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri,* Bakı: Elm və Təhsil, 2018, 37.

patriaxına papanın vassalı olmağa məcbur edirlər. Hətta qadınlara görə xristianların evinə girir dözülməz iftira atırlar. İsfahan hökümətinin qərarı ilə bir çox katoliklər həbs edildilər. Lakin pul və müxtəlif yollarla razılaşma əldə edərək bədbəxt katoliklər azad edildilər. Bununla razılaşmayan ermənilər yenidən hədiyyələrlə məhkəməyə gedərək məhkəmənin verdiyi qərarın əleyhinə çıxacaqlarına ümid edirdilər. Biz bunu öyrənəndə dostlar və pul vaistəsilə bizə şah tərəfindən verilən əvvəlki dini azadlıqlarımızın təsdiqini əldə etdik. Səlahiyyətin bir nüsxəsini Gürcüstana və Tiflis hökümətinə oradakı katoliklərin həbsinin, öldürülməsinin qarşısını almaq üçün göndərdik.[30] Ümumiyyətlə, katoliklərlə qriqorian ermənilər arasındakı çəkişməni aradan qaldırmaq üçün Şah hər iki tərəfə öz müqəddəs kitablarını İncili və Vulqatı (İncilin latın versiyasıdır. IV əsrdə hazırlanıb 1592-ci ildə İtalyan katolikkilsəsi tərəfindən rəsmi olaraq qəbul edilib -S.M ) fars dilinə tərcümə etməyi tapşırmışdı. Nadir şah həmçinin müsəlmanlar arasında olan təriqət ayrı seçkiliyinə qarşı idi. Şah Quranın da tərcümə edilməsini əmr etmişdi. Nadir şahın fəaliyyətində onun dini siyasəti mühüm rol oynayırdı. Müsəlmanlar arasında da olan təriqət ayrı-seçkiliyini aradan qaldırmaq üçün dini islahata cəhd etmiş, Şiəlikdən dolayı yayılan rafizi düşüncələrini rədd etmiş, İran xalqını Təbərradan (Səfəvilər zamanı yayılan dörd xəlifədən ilk üçünə lənət oxumaq) imtina etmələri üçün fərman vermişdi.[31] Xristianları bu tərcümələrin nəticələri narahat edirdi. Bəziləri deyir ki, Şah Özbək tatarları ilə müharibədən qayıdandan sonra dinlərin başçılarını çağıracaq, hər məslək üçün ictimai mübahisələrə son qoymaq məqsədilə yeni bir qanun yaradacaq, başqaları deyir ki, ermənilərin katoliklər əleyhinə şikayətlərinə baxacaq və əmr verəcək ki, xristianlar arasında bir din təsis edilsin.[32]

Tərcümə işi ilə bağlı xronika da yenə yazılır: ”Nadir şah qışı Mazandaranda keçirdi. O, etiqadların başçılarını yanına çağıraraq əmr etdi ki, onlardan hər biri öz müqəddəs kitablarını müasir Fars dilinə tərcümə etsinlər və sonra O, ən yaxşı etiqad və qanunları seçərək onları birləşdirsin. Fars Molla məcbur edildi ki, Quran ərəb dilindən tərcümə etsin baxmayaraq ki, tərcümə Məhəmməd tərəfindən qadağan edilmişdir. O, (Məhəmməd) arzu edirdi ki, kitab yalnız ərəb dilində yazılsın. Yəhudi ravvinlərinə əmr edildi ki, Əhdi–Ətiqi tərcümə etsinlər, ermənilər Həvarilərin işlərini, Həvarilərin

[30] *A Chronicle of the Carmelites in Persia,* 632-633.
[31] *Vekayi-name-i Nadir şah. Der-mezahib-i Şiiye-i Caferiyye*, İstanbul: Yüksek Öğretim Kurulu, 1990, 3; *Dürre-i Nadiriye görə Nadir şah dönemi*, Tercüme ve değerlendirme Babek Shahed, Yüksek Lisans Tezi, Ankara Universiteti, Ankara: 2016, 30; Tofiq Mustafazadə, *XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri,* Bakı: Elm, 2002, 65; Cahangir Hüseynov, *Azərbaycan Nadir şah Əfşar dövləti,* Bakı: 2014, Qanun, 69-70.
[32] *A Chronicle of the Carmelites in Persia,* 634.

məktublarını və Apokalipsisi tərcümə etsinlər. Nəhayət katolik missionerlərinə buyruldu ki, dörd İncili tərcümə etsinlər. O, fərman verdi ki, hökümət sarayı yerləşən İsfahanda nəşr olunsun. Onların hamısı bu işlə məşğul olsunlar və həmin ilin sonuna kimi bütövlükdə işi tamamlasınlar. İncilin tərcüməçiləri Monsignor Filipp Mari, İsfahanın baş keşişi Fr.Urban Elisaues, bu ölkədə əyalət vikarı olub 40 ildir missionerlərin apastolluq işlərini həyata keçirən və hələ də səylə bunu edən Fr.Tomas Aqinas, onlardan üçü isə Ayaqyalın Karmelitlərdən idi. Nəhayət səkkiz aya tərcümələri bitirərək nümayəndələr Qəzvinə Şahın qəbuluna gəldilər. Təyin olumuş vaxtda qəbul baş verdi. İran adətlərinə uyğun baş verən görüşdə Şah əlyazmaları gözdən keçirdi və müsbət fikrini bildirdi. Onlara öz aralarında bölmək üçün 100 tümən verdi. Geri qayıdanda tərcüməçilər pulları öz aralarında böldülər. Sayları üç olan missioenərlərə 15 tümən, dörd yəhudiyə 20 tümən, beş ermənіyə 25 tümən, səkkiz fars mollalarına 40 tümən çatdı. [33] Lakin Nadir şahın tərcümə etdirməkdə məqsədi missionerlərə də müəmmalı qalmışdı. “Mən deyə bilmərəm ki, şahənşahın əslində tərcümə etdirmək istəməkdə məqsədi nədir bu səbəbdən mühakimə edə bilmirəm ki, nə üçün sonradan bununla əlaqədar heç bir qərar qəbul etməmişdir. Amma ehtimal çoxdur ki, nəzərə alınmalıdır ki, özbəklər tərəfindən yeni üsyan onu narahat edirdi, hansıki, onun əmisi oğlunu öldürmüşdülər və başqa tərəfdən şübhələnirdi ki, Konstantinapolun sultanı ola bilsin ki, ona müharibə elan etsin. Faktla əlaqədar olaraq sonuncu Qarsda və Ərzurumda qarnizonları gücləndirmiş, ordunu hazır vəziyyətə gətirmişdi. Bütün bunlar Onun hərbi və siyasi idarəçilik düşüncələrini dəyişdi, dini fikirlərini tərk etdi, hansı ki məlum olduğu kimi heç vaxt əsla diqqət göstərməmişdi. Bundan əvvəl o dərhal özünü gəmi hazırlamağa həsr etdi, bir neçəsini ingilislərdən alaraq, digərləri holland və mahratlar tərəfindən Bəndər Abbasda, Fars körfəzində Hamburunda hələdə tikilirdi. O, fransız mühəndisi Monsieur la Porterieni dəniz qüvvələrinin admiralı təyin etdi, şayiə yayıldıki, həm quru həm su yolu ilə Məkkəni ələ keçirmək fikrindədir. Türkiyə Sultanı razılaşmamaqdan imtina etsin ki, onlar gərək növbə ilə hər il Məhəmməd peyğəmbərin məzarına sərilən böyük xalçanı göndərsin. [34] Tərcümə məsələsinə toxunan başqa tədqiqatçılar yazır ki, Şah Tövrat və İncilin tərcüməsi ilə tanış olduqdan sonra demişdir ki, ”Əgər Allah birdirsə, onda gərək peyğəmbərdə bir olsun”[35]

---

[33]*A Chronicle of the Carmelites in Persia,* 636-638.; Lokkart, *Nadir şah,* 335.
[34]*A Chronicle of the Carmelites in Persia,* 638.
[35] Rena Mamedova. ”Politika Nadir şaxa в отношении религиозных меншинств,” *Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası,* № 4, 2011, 157.

Xronikada həmçinin ermənilərlə missionerlər arasındakı narazılıqlara da geniş yer ayrılıb. Culfanın baş keşişinin Papa XIV Benediktə 1741-ci il 25 aprel tarixli məktubunda deyilir: ”Böyük Allahın lütfü ilə, Persiya uzun illər müharibədən sonra əmin –amanlıq ümidi ilə azca nəfəs almağa başlayır. Vəli Nemət artıq Hindistandan öz zəkası ilə qələbə qazanaraq düşməndən götürülmüş qənimətlə yüklənmiş böyük dəyərində olan xəzinə ilə qayıdıb və Persiya taxtına yiyələnib. O, gəlib çatanda missionerlərə çoxlu imtiyazlar verdi. Yalnız qanuni sələflərinin verdiyi azadlıqları təsdiq etmədi, əvvəlki Persiya krallarının verdiyi azadlıqlarla yanaşı hər bir xalqa istədiyi dində olmasına icazə verdi. Belə ki, Culfada 7 bidətçi erməni keşişi katoliklərə və missioenerlərə az qala qəmiş olmuşdular. Baxmayaraq ki, az vaxt bundan əvvəl Müqəddəs Roma imanının izzəti üçün hamımız birlikdə təhqirlər, zərbə, həbs, söyüş və zülmdən əziyyət çəkirdik. Amma indi biz əziyyətimizin şirin meyvələrindən həzz alırıq.. və indi gündə neçə bidətçi görürük ki, apastola qayıdır. Otuzdan çox sayda.” Lakin bütün bunlara baxmayaraq yenə katoliklər incidililirdilər. Nadir şahın həkimi Kapuçin Daminian 1742-ci ildə yazırdı.“Tiflisdə Bizim Kapuçin Atalarımız patriarxın və onun qəddar erməni agentlərinin əlindən əziyyət çəkirlər. Mən şahdan 3 fərman əldə etdim. Onların sayəsində zərər çəkmiş atalarımızın vəziyyəti yaxşı olacaqdır. Katolik erməniləri azad olmalıdırlar. Əmrimizdə Persiyanın hər yerində xüsusilə də Təbrizdə bizə böyük dini imtiyazlar verilirdi. Təbrizdə mən yerimə Fr.Pelelerini tərk edərək getdim. O, yazır ki, Naxçıvanın arxiyepiskopu iğtişaşlara görə ona qoşulmuşdur”. İkinci məktubunda Fr. Daminian yazır: ”Mən bir neçə gün il əvvəl xüsusi vəzifə ilə gətirdiyim əmrləri yerinə yetirmək üçün şahın məmurları ilə Tiflisə gəldim ki, Atalarımızdan alınan hər şey bərpa edilsin. Burada gərək dinimiz tamamilə azad təhlükəsiz olsun. Mən nəticədə kilsəmizi yenidən açdım. Atalarımızdan ikisi artıq geri qayıtdı. Şah mənə Təbrizdəki evimiz haqqındada gözəl fərman vermişdi. Fərmanda kilsəyə zəng quraşdırmağa icazə verilirdi.[36]Katoliklər yazılarından açıq aydın ermənilərin pozuculuq işləri ilə məşğul olduğu görülür.

Xronikada həmçinin Roma papası ənənəvi siyasətinə sadiq qalaraq Səfəvilərdə olduğu kimi Nadir Şah Əfşarında türklərə qarşı müharibələrini alqışlayırdı. Deməк XVIII əsrdə Osmanlı dövləti əvvəlki qüdrətini itirsədə hələ də Avropa üçün real təhlükə olaraq qalırdı. Görünür, Şah I Abbasdan fərqli olaraq Nadir Şah Osmanlıya qarşı mübarizədə Avropa dövlətlərinin ittifaqına meylli deyildi. Papa məktublarında yalnız

[36] *A Chronicle of the Carmelites in Persia*, 639-640.

imperiya ərazisindəki katoliklərin vəziyyəti ilə bağlı şaha müraciətlə kifayətlənirdi. XIV Benediktin Nadir Şaha 1742-ci il 30 iyun tarixli məktubunda deyilir: ”Məşhur və çox güclü Persiya kralı Nadir Şaha. Bizə valehedici xəbərlər çatdı ki, Sizin yenilməz gücü və hərbi bacarığı olan ordunuz Sizin böyüklüyünüz sayəsində qəddar türk ordusunu darmadağın etmiş, mülayimlik üsul və vasitələri ilə idarə etdiyiniz xalqınızın sadiqliyi və itaətkarlığı nəticəsində qələbə çalmısınız. Bu hadisə baş verəndə biz həqiqətən olduqca sevindik. Düşünürük ki, o düşmənlər sizin tərəfinizdən əzildi ki, onlar eyni dərəcədə ən çox xristian və farslara düşmənçilik edir, bizi narahat edirlər. Amma eyni zamanda dəqiqliklə sizin qanunlarınızla yaşayan katoliklər bütovlüklə sizin yayılmış hakimiyyətinizə uyğun olacaq mövcud şərtləri layiqli yerinə yetirəcəklər. Odur ki, biz Əlahəzrəti məlumatlandırmaq qərarına gəldik ki, etdiyiniz uğurlu və fərasətli əməllərinizi öyrənən də biz tərəfdən sevinc yaşandı. Biz sizin tərəfinizdəyik və uğurlarınızı alqışlayırıq. Siz daha həvəslə imperiyanızın bizim dinimizdə olan vətəndaşlarına şahlıq mərhəmətinizi göstərəcəksiniz. Əmin olmağınız lazımdı ki,onlar sizin şöhrətinizə sevinirlər. Sizin xeyirxahlığınız, diqqətiniz sayəsində hətta daha çox xristian dininin hökmlərinə itaətdə sadiq qalırlar. Biz hesab edirik ki, siz tamamilə bununla inamlısız. Daha qətiyyətlə sizin xeyirxahlığınıza güvənərək xahiş edirik, Gürcüstan krallığındakı katolik dini inancında olanlara dini təlimləri öyrətmək üçün göndərdiyimiz Kapuçin missioner qardaşları indiyə qədər bütün vergilərdən azad idilər, amma indi ağır şəkildə boğaza qədər yüklənmişlər. Belə ki, öz lazımi ləvazimatlarına pul ödəyə bilmirlər. Səxavətiniz sayəsində dərdlərinə şərik olasız. Onlar insan mükafatını düşünmədən yalnız zatən xalqına xeyir qazandırmaq niyyətilə, əbədi xoşbəxlik üçün əmin yolu arzusunda olanlara göstərmək üçün özlərini təhlükədə qoyaraq öz ölkələrini tərk etdilər. Onlardan mərhəmətinizi əsirgəməyin. Xeyriyyəçilikdən daha möhtəşəm bir şey yoxdur. Biz şübhə etmirik ki, Siz kapuçinlərə, onların monastrlarına lütfkar olacaqsız, onlar Tiflisdə, Qoridə və Gəncədə bütün vergilərdən azad olacaq və bəraət alacaqlar...Romadan göndərilmişdir 30.06.1742”[37] Sonrakı yazışmalardan aydın olur ki, Şah şəxsən katolikləri təqib edənləri cəzalandırmış və onların imtiyazlarını qaytarmışdı. Sonrakı dövrlərdə də Katoliklər şahın imtiyazlarından faydalanmışdılar. İsfahanda 3 monastr var idi ki, biri Portuqal avqustinlərinə, biri karmelitlərə, biri kapuçinlərə aid idi. Culfada 3 monastr var idi. Biri

[37] *A Chronicle of the Carmelites in Persia,* 640-641.

dominikianların, biri yezuitlərin, biridə karmelitlərin, digəri isə erməni katoliklərin idi.[38] Xronikada dövrün siyasi hadisələrinə də geniş yer verilmişdir. Persiya ordusunun 1743-cü ildə İraqın Mosul şəhərinin mühasirəyə alması haqqında yazır: ”Nadir şahın əmri ilə saysız hesabsız əsgər qüvvəsi Mosul şəhərini mühasirəyə almışdır. Şəhər palçıq səddlə, yoxsul silahlar və qarnizonla gücləndirilmiş, nizamsız olsa da 3 ay 13 gün 30.000-lik Persiya qüvvələrinə müqavimət göstərmişdi. Baxmayaraq ki, üç güclü qəbilədən ikisi Müntəfiq və Bəni Ləm Perslərə qoşulmuşdu. Belə baxanda şəhər bütünlükdə məhv ola bilərdi. Şəhərin ilk hücumda çökməməsi inanlmaz idi. Musa Paşa Minəvi və Mutəsəllim Rüstəm ağa tərəfindən usanmadan səylər edilirdi. Çayın o biri tərəfindəki kiçik qala istisna olmaqla düşmənin bütün cəhdlərinin qarşısı alınmışdı. Üç top mərmisi bizim (Karmelitlərin) sığınacağımıza düşmüşdü. Lakin kilsədə heç kim olmamışdı. Onlardan yanan biri bizim qonaq evimizə (karvansaraya) düşmüşdü, amma yaxşı ki,ziyan 20 mahmudi oldu. Nəhayət, 1743-cü il 8 dekabr tarixində sevindirici haldı ki,biri türk biri pers olan iki elçi Nadir şah və Əhməd paşa tərəfindən sülh razılaşmasının müzakirəsi üçün çatdı. Beləki, hər iki tərəf arasında düşmənçilik dayandırıldı. Şəhərin darvazaları açıldı. Bir neçəgün sonra pers ordusu Persiyaya qayıtdı. Amma biz sülhün şərtlərini bilmədik. Amma yalnız onu eşitdik ki, Pers ordusunun baş komandirinin Məşhəd şəhəri yaxınlığında ömrü bitdi. O qaçmışdı. Müharibənin qeyri -qənaətbəxş nəticəsi üçün şah tərəfindən cəza olaraq başı kəsilmişdi”.[39] Nadirin mühasirəni dayandırıb danışıqlara getməsinin səbəbləri çox idi. Ölkədə başlayan üsyanlar, sərhədlərin pozulması təhlükəsi və s.[40] Sonrakı məlumatlar daha maraqlıdır. 2 mart 1744-cü ildə Konstantinopoldan xəbərlər ”Mosulun mühasirəsi qaldırıldıqdan sonra Təhmasib Qulu xanın oğlu (Nəsrulah Mirzə və ya Nazar Əli Mirzə-S.M.) Bağdad şəhərini blokadaya aldı. Təhmasib Qulu xan özü Altun Suda - Bağdadla Kərkük arasında “Qızıl çay” adlanır düşərgə saldı. Kiaya Əhməd Paşa keçən ilin okyabrında Konstantinopola etdiyi səfərdə Hökümətin ona etibar edilən tapşırığı icra etməyə göndərildi. Danışıqların nəticəsində Təhmasib Qulu xan Əhməd paşa ilə sülh barədə razılığa gəldikdən sonra qərarə aldı ki, Persiyaya geri çəkilsin. Bağdadın qubernatoru isə Hökümət tərəfindən təsdiqləmək üçün getdi. Keçən ilin dekabrında (1743) yenidən Kiayaya göndərildi. Təhmasib Qulu xan özünü sünni və əsl Məhəmmədi elan etmişdi, dörd məscidi ziyarət etməmiş qayıtmaq istəmədi. O, öz İtimad-ud Dövləsini Əhməd paşanın ziyarətinə göndərdi. Əhməd paşa

---

[38] *A Chronicle of the Carmelites in Persia,* 642-643.
[39] *A Chronicle of the Carmelites in Persia,* 646-647.
[40] Lokkart, *Nadir şah*, 315-318.

onu haram qapısında (Əndərunda) qəbul etdi, qucaqladı, ona üç gözəl, bahalı yəhər-yüyənli at verdi və hər kəs tərəfindən eşidilmək üçün kifayət qədər hündür səslə dedi: "Bu kəslər yox, Allah bu görüşü təşkil edib ki, sənin və mənim bizim padşahlarımızın fikirlərini dəyişdirib". İtimad-ud Dövlə burada 24 saat qaldı. Bu vaxt ərzində Əhmad paşa ilə iki gizli söhbətləri oldu. Məşhədi Əli məscidindən (Nəcəf) döndükdə Təhmasib Qulu xan dekabrın 13-ü 1743-cü ildə Bağdaddan uzaqlaşaraq Persiyaya yola çıxdı. Əvvəlki məlumatlara görə, o Təpə Dağda idi. Axırıncı məlumata görə O, İrəvandadır. Türklərdən aldığı yerlər və obalardan imtina etmişdir.19 dekabr 1743-cü ildə onlar Bağdaddan yazdılar ki, Sultanın adından gedəcək və sahiblənəcək olan zabitlər müəyyən olunmuş, yola düşmüşlər. 23 dekabr 1743-cü ildə Bağdaddakı insanların narahatlığına görə bu gözlənilməz hadisə Konsantinopolda sevinclə qarşılandı, Kiaya Əhməd paşa Nikomediya da ayaq saxladı, göndərişləri göndərdi. Yalnız fevralın 10-u 1744-cü ildə İstanbula getməyə icazə aldı. Fevralın 14-ü 1744-cü ildə Kiplas ağa Sultanı məscidə qədər müşayiət etdi. Sonra O, Əhmad paşa ilə bir neçə söhbət etdi. Müxtəlif məclislər təşkil edildi və sonda 25 fevral 1744-cü ildə Divan çağrıldı (Böyük Məclis) toplandı. Qərarə alındı; "Təklif edildi ki, Qurana zidd olan sülhün şərtləri Xüsusi ilə Təhmasib Quluxanın ayrı və müstəqil amirul hacın başçılığı altında Persiya ziyarətçilərinin göndərilməsinə icazə verilməsi əlaqədar tələbi rədd edilsin ."Belə ki, müharibə üçün hazırlıqlar davam edir və hətta Şah Səfi üçün Səfəviləri müdafiə edən əyanları razı salmaq üçün 3 karvanla əhəmiyyətli məbləğdə pul və toxunmuş paltarlar, qiymətli daşlar, brilyantlar göndərmişdilər, Əhməd paşa, keçmiş Baş Vəzir Osmanlı ordusuna Sər-Əskər (Baş komandir ) təyin edildi. 6000 türk dəniz vasitəsilə Krımdan Trabzona göndərilmişdi. Həmçinin Trabzona səkkiz yelkənli gəmi, zirehli geyimlər, hərbi təchizat göndərilməsi qərar alındı."[41]Bu hadisələr bir qədər fərqli digər qaynaqlardada əksini tapmışdı. Bağdadın baş keşişinin 21 noyabr 1746-cı il Kardinal Prefektə yazdığı məktubda deyilir ki, "Persiyadaki yeni xəbərlərə görə hər şey sakitdir, türklər ilə sülh qurulub, Persiya kralı Nadir şah Qəndəhara yeni üsyanları yatırmaq üçün gedib, amma çoxu inanırki, ikinci dəfə işğal üçün Hindistana yaxınlaşmağa bəhanədir. Baxmayaraq ki, birincisi kimi uğurlu olacağı şübhəlidir.[42] Sülh dedikdə yəqin ki, Osmanlı ilə 1746-cı il sentyabrın 4-də Kürdanda bağlanmış müqavilədən söhbət gedir. Müqavilədə İranlıların Şamdan hacca getmək üçün özlərinə uyğun bir hac əmiri təyin ediləcəyi, Osmanlı tərəfindən, Bağdaddan Şama qədər yol

[41]*A Chronicle of the Carmelites in Persia* ,648.
[42]*A Chronicle of the Carmelites in Persia*, 649.

üzərində olan vali və hakimlərə hacıların yol təhlükəsizliyi üçün lazımlı əmrlərin yazılacağı, İstanbulda olan iranlı əsirlərin alınıb–satılmasının qarşısını alacağı və əsirlərdən istəyənlərin məmləkətlərinə qayıtmaları üçün lazımi yardım göstəriləcəyi, İrandakı türk əsirlərinin azad ediləcəyi, əvvəlki sərhədlərin saxlanılması, iranlıların əvvəllər olduğu kimi Əhli-sünnət məzhəbini saxlayacaqlarını, hər iki dövlətin tacirinin ticarət məqsədiylə gətirdikləri maldan qanunla təyin olunan gömrük vergisindən çox şey tələb edilməyəcəyini nəzərdə tutulurdu. [43]1747-ci il iyun ayının 19-dan 20-sinə keçən gecə Nadir şah Əfşar öldürüldü. Lakin hakimiyyətinin sonuna kimi Nadir şahın katolik missionerlərinin imtiyazlarına toxunmamışdı.[44]

[43]*I Mahmud-Nadir şah mektuplaşmaları*, İstanbul: BİON, 2014, 202; Lokkart, *Nadir şah,* 349-350. Gözəlova, Bağırov, *XVIII sərin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri*, 45; Nigar Qezalova, *Voprosı istorii Azerbaydjana XVIII v*. Baku-Moskva: Qanun, 2010, 89.

[44]Famil Əliyev, *XVIII əsrin I yarısında Azərbaycanda ticarət*, Bakı: AZSSR EA nəşriyyatı, 1964, 23, Elçin Qarayev, *Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində*, Bakı: ADPU, 2005, 79.

## Nəticə

Nadir şah imperiyası yarandığı ilk gündən Səfəvi dövlətinə münasibətdə olduğu kimi Əfşar dövlətinə də Roma papası başda olmaqla Avropa dövlət başçıları maraq göstərirdilər. Təbii ki, bu marağın əsas səbəbi Osmanlı idi. Lakin məqalədə yazıldığı kimi Nadir şah ilk Səfəvi şahlarından fərqli olaraq Osmanlıya qarşı müttəfiq axtarışında deyildi. Bu da onu göstərir ki, iki imperiya arasında müəyyən vaxtlarda müharibə baş versə də münasibətlər elə də kəskin deyildi. İkinci əsas nəticə Nadir şah imperiyasındakı qeyri-dinlərə münasibətlə bağlıdır ki, bu məsələ də gördüyümüz kimi kəskin səviyyədə deyildi. Hətta missionerlərin verdiyi məlumatlarda dövlət xristianlara müəyyən imtiyazlar vermişdi.

## Mənbə və ədəbiyyat

AKSVÖRTİ, M. *Nadir şah.* Bakı: Şərq-Qərb, 2018.

ATEŞ, A. ve Halaçoğlu, A., "Avşarlı Nadir şah vədönemində Osmanlı-İran mücadeleleri", Doktora Tezi, Süleyman Demirel Universitesi, Isparta: SDÜ Sosyal Bilimler Enstitüsü, 2001.

BAKIXANOV, A. *Gülüstani-İrəm*. Bakı: Minarə, 2000.

ƏLİYEV, F.M. *XVIII əsrin I yarısında Azərbaycanda ticarət*. Bakı: Az.SSR EA nəşriyyatı, 1964.

ƏSƏDOV, F.N. *Nadir Şah Əfşar.* Bakı: İqtisad Universiteti, 2011.

GÖZƏLOVA, N. BAĞIROV, Ə. *XVIII əsrin 30-40-cı illərində Nadir Şah Əfşarın Bağdad yürüşləri*. Bakı: Elm və Təhsil, 2018.

HÜSEYNOV, C.H. *Azərbaycan Nadir Şah Əfşar dövləti*. Bakı: Qanun, 2014.

QARAYEV, E. *Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində*. Bakı: ADPU, 2005.

LOKKART, L.. *Nadir Şah.* Bakı: Qanun, 2018.

MUSTAFAZADƏ, T. *XVIII yüzillik-XIX yüzilliyin əvvəllərindəOsmanlı-Azərbaycan münasibətləri*. Bakı: Elm, 2002.

SÜLEYMANOV, M. *Nadir şah.* Bakı: Qanun, 2018.

*Dürre-i Nadiriye göre Nadir şah dönəmi*, Tercüme ve değerlendirme Babek Shahed, Yüksek Lisans Tezi, Ankara Universiteti, Ankara: 2016.

*I Mahmud –Nadir şah mektuplaşmaları.* İstanbul: BİON, 2014.

*Vekayi-name-i Nadir şah. Der-mezahib-i Şiiye-i Caferiyye.* İstanbul: Yüksek Öğretim Kurulu, 1990.

QEZALOVA, N. *Voprosı istorii Azerbaydjana XVIII v.* Baku-Moskva: Qanun, 2010.
LOKKART, L. *Nadir şax,* Baku: Qanun, 2004.

MAMEDOVA, R. "Politika Nadir şaxa в отношении религиозных меншинств". *Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası*, №4, 2011, 152-160.

PİLİPÇUK, Y. V. "Nadir –şax i Qruziya". *İranname.* №4, 2018, 238-271.

*A CHRONICLE OF THE CARMELITES IN PERSIA*. Vol.1. London-New-York: Tauris, 2012.

FRASER, J. *The history of Nadir Shah, formerly called Thomas Kuli Khan, the Present Emperor of Persia*. London: Central Archaelogical library, 1742.